***İlahə Adil qızı Nəhmətova***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun magistrantı,*
*"Təhsil və beynəlxalq əlaqələr" şöbəsi*
E-mail: ilahenehmetova@gmail.com

# İLK ORTA ƏRSLƏRDƏ AZƏRBAYCANDA DƏFN ADƏTLƏRİNƏ DAİR

**Açar sözlər:** Xristianlıq, dəfn adətləri, qəbir

**Ключевые слова:** Христианство, погребальный обряди, могила

**Key words:** Christianity, funeral traditions, grave

Dəfn mərasimi cəmiyyətin ideologiyasını, dini dünyagörüşünü özündə əks etdirdiyi üçün qəbirlərin quruluşu və skeletlərin dəfn olunma vəziyyəti dəfn olunmuş şəxsin etiqadını, qəbirlərə qoyulmuş avadanlıqlar isə cəmiyyətin ictimai, iqtisadi mədəni səviyyəsini öyrənməyə imkan verir. Qeyd olunan bu sahələr sosial-mədəni antropologiyanı da maraqlandıran əsas məsələlər hesab olunur.

Xristian dəfn adətləri Azərbaycan sosial-mədəni antropologiyasının zəif öyrənilmiş problemlərindən biri olduğu üçün məqalədə bu məsələyə diqqət ayrılmışdır. Lakin bu o demək deyildir ki, qəbir abidələrinin öyrənilməsi və tədqiqi ümumiyyətlə olmamışdır. Sadəcə olaraq onu deyə bilərik ki, xristian qəbir abidələri ilə bağlı yazılmış əsərlər və məqalələrdə daha çox qəbirlərin forması, ölçüləri, onlardan əldə edilmiş avadanlıqlara diqqət yetirilmiş, dəfn adətlərinə isə nisbətən az toxunulmuşdur. Bununla belə, mövzu ilə bağlı olaraq R.Göyüşovun "Amaras-Ağoğlan", "Христианство в Кавказской Албании", R.Vahidovun "Mingəçevir III-VIII əsrlərdə (arxeoloji qazıntı materialları əsasında)", Qaraəhmədovanın "Христианские памятники Кавказской Албании (Алазанская долина)", M. C. Xəlilovun "Albaniyanın qəbir abidələri (IV-X əsrlər)" (2; 6; 8; 4; 3) və digər müəlliflərin əsərlərinin, eləcə də adları çəkilmiş müəliflərin bir sıra məqalələrinin adlarını çəkə bilərik. Adları çəkilən əsərlərdə xristian qəbir abidələrinin ümumi tipologiyası və ayrı-ayrı ərazilərdən aşkar edilmiş qəbir abidələri haqqında məlumat verilmiş və müəyyən qədər dəfn adətlərinə toxunulmuşdur.

Xristian dəfn ayininin icra edildiyi qəbirlər forma və inşat materialları baxımından bir-birindən fərqlənir. Əsasən aşağıdakı qəbir tipləri arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış və bu bölgü elmi ədəbiyyatda qəbul edilmişdir: 1) torpaq qəbirlər, o cümlədən üzəri ağac tirlər və daş parçaları ilə örtülmüş qəbirlər; 2) kərpic və ya daşdan inşa edilmiş qutu formalı qəbirlər; 3) sarqofak tipli qəbirlər; 4) daşdan və ya kərpicdən inşa edilmiş sərdabələr, 5) katakombalar (3, s. 60).

Skeletlər əsasən ağac tabut və ya qəbir kamerasının döşəməsində dəfn olunmuşlar (3, s. 61). Qəbirlərin bu cür müxtəlif olması coğrafi şərait və dəfn ayinlərinin təkamülü ilə izah olunur (6, s. 109). Təbii ki, sosial bərabərsizlik də bu cür müxtəlifliyə təsir etməyə bilməzdi (7, s 19).

Xristian qəbir abidələrinə təbii olaraq kilsə ətraflarında da rast gəlinir ki, bu qəbirlərin də ilk kilsə xadimlərinə aid olması fikri mövcuddur (8, s 135).

Xristianlığın ilkin dövrünə aid qəbir abidələrinin tədqiqi həmin dövrdə xristian və bütpərəst dəfn ayinlərinin qarışıq şəkildə istifadə edildiyini göstərir (7, s. 19). Bunu skeletlərin qəbirdəki vəziyyəti və bəzi qəbirlərdə avadanlığın olması da təsdiq edir. Aşkara çıxarılmış skeletlərin əllərinin vəziyyətinə görə bu abidələri bir neçə qrupa bölmək olar: 1) mərhumun hər iki əlinin sifətə doğru uzadılmış vəziyyətdə olması; 2) bir əlin sifətə doğru, digərinin isə döş qəfəsinin üzərində olan skeletlər; 3) əllərin qarın nahiyyəsində çarpazlaşdırılmış vəziyyətdə olması; 4) əllərin döş qəfəsi üzərində çarpazlaşdırılmış vəziyyətdə olması; 5) hər iki əlin gövdə boyu uzadılması (3, s. 60-61).

Əllərin üzə doğru qaldırılması xristianlığa ziddir, bu adət bütpərəst dini dünyagörüşünün qalığı kimi qəbul edilir. S. Qazıyev bir əlin mərhumun üzünə doğru qaldırılmış vəziyyətdə dəfn olunmasını xristianlığın ilkin

dövrünə aid edərək, bu adəti bütpərəstliyin qalığı kimi qeyd etmişdir (5, s. 242). Xristian qəbirlərində skeletlər əsasən kürəyi üstə uzadılmış və ya böyrü üstə zəif bükülü vəziyyətdə aşkar edilmişdir. M.C.Xəlilovun fikrincə yuxarıda qeyd edilmiş skeletin qəbirdəki vəziyyətinin müxtəlif variantlarının heç birini sırf xristian mənşəli hesab etmək düzgün deyil. Bu variantların heç birinə alban dövrü bütpərəst qəbir abidələrində rast gəlinməsə də, belə dəfn adətləri xristianlığın qəbul edildiyi Ön Asiyada bütpərəst qəbir abidlərində izlənilir (3, s. 61).

R.Vahidov Mingəçevir ərazisindən aşkara çıxarılmış xristian qəbir abidələrini dövr və quruluşuna görə iki qrupa ayırır: 1) çiy və bişmiş kərpicdən tikilən ilk xristian qəbirləri; 2) torpaqda qazılmış son xristian qəbirləri. Birinci qrupa aid edilən qəbirlərin hamısında skeletlərin hamısının başı qərb, ayaqları isə şərq istiqamətində basdırılmış vəziyyətdə olsa da, əllərin mövqeyinə görə bir-birindən fərqlənirlər. Bundan başqa bu qəbirlərdən aşkara çıxarılmış skeletlərin bəziləri tabutla birlikdə dəfn edilsə də, digərlərində bu hal müşahidə olunmur (8, s. 128). Həmçinin, skeletlərin bəzilərinin qəbirdə arxası üstə uzadılmış vəziyyətdə, bəzilərinin də sol böyrü üstə bükülmüş vəziyyətdə basdırılması ilkin dövrdə vahid xristian dəfn adətinin olmadığını sübut edir. 4 nömrəli qəbirdən kül qatı aşkar edilsə də, skeletin üzərində heç bir yanıq izinə rast gəlinməmişdir (8, s. 129). Görünür, kül təbəqəsi dəfn zamanı həyata keçirilmiş hər hansısa dini ayinlə bağlıdır. Qeyd olunanlarla yanaşı 5 nömrəli qəbrin sərdabə tipli olması, skeletin üzərindən Çin istehsalı ipək parça qalıqlarının aşkar edilməsi (8, s. 129-130) mərhumun cəmiyyətdə önəmli rol oynadığı fikrini söyləməyə imkan verir. Sərdabə haqqında maraqlı faktlardan biri də divarının üzərində xaç və naməlum işarələrin olması və sərdabənin əvvəlcədən tikilmiş, sonradan cəsədin içəri keçirilməsi üçün qərb divarının dağıdılması fikridir. Düşünürük ki, bu fakt da bundan əvvəl qeyd etdiyimiz mülahizənin doğruluğunu gücləndirir.

Mingəçevirin xristian qəbirlərinin birinci qrupuna aid olan 8 nömrəli qəbirdən bir sıra bəzək əşyaları yanaşı əldə edilmiş hərəsində 3 asması olan üç ədəd qızıl daş bəzəyi diqqəti cəlb edir (8, s. 132). Zinət əşyaları arasında 3 ədəd tunc halqanın hər birinə keçirilmiş 3 ədəd yuvarlaq bəzəyin olması xristian dinindəki üçlüyə (ata, oğul və ruh) olan etiqaddan irəli gəlməsi haqqında fikir mövcuddur (5, s. 243).

İlk xristian qəbir abidələrində cəsədin arxası üstə deyil, bükülmüş vəziyyətdə dəfn edilməsi və skeletin ətrafından qəbir avadanlığının əldə edilməsi əvvəlki dəfn adətlərinin ilkin dövrdə tam aradan çıxmadığını sübut edir.

Mingəçevirin son xristian qəbirlərində tətbiq edilən dəfn adətləri isə birinci qrupdan fərqli olaraq demək olar ki, eynilik təşkil edir. Belə ki, skeletlərin hamısı arxası üstə uzadılmış vəziyyətdə aşkar edilmişdir. Skeletlərin bəzilərinin əlləri bədən boyunca uzadılmış, bəzilərinin bir əli qarın nahiyəsində, digəri bədən boyu uzadılmış, bəzilərinin əlləri isə qarın nahiyəsində çarpazlaşdırılmışdır ki, (8, s. 133) bu sonuncu variant bu gün də qorunub saxlanmaqdadır. Həmçinin bu qəbirlərdən bəzək əşyalarından savayı heç bir avadanlığın olmaması, skeletlərin çoxunun taxta tabutda basdırılması və ya cəsədin üzərinin taxtalarla örtülməsi də (8, s.133) artıq vahid və yetkinləşmiş xristian dəfn adətinin meydana çıxdığını söyləməyə əsas verir. Bu qəbirlərdə də skeletin istiqaməti birinci qrupda olduğu kimi qərbdən şərqə doğrudur (8, s. 133).

Rəşid Göyüşov Amaras ərazisində aparılan tədqiqatlar nəticəsində aşkara çıxarılmış qəbir abidələrini üç qrupa bölür və bu qəbirlərdə bir-birindən fərqlənən bir neçə dəfn adətinin mövcudluğunu bildirir. Qəbir tipləri bunlardır: 1) sadə torpaq qəbirlər, 2) küp qəbirlər, 3) daş qutu qəbirlər. Adı çəkilən ərazidə ən geniş yayılmış qəbir tipi sadə torpaq qəbirləri olub, bunlar özləri də 2 qrupa bölünür. Xristian qəbirləri isə ikinci qrupu təşkil edir, yəni bu qəbirlərin üzəri sal daşla örtülmüşdür (2, s. 81). İkinci qrup qəbirlərdə zəif bükülü, sağ böyrü üstə uzadılmış, bir əli bədən boyu uzadılmış, digəri üzünə doğru qaldırılmış skeletlər üstünlük təşkil edir. Bu cür qəbirlərdən heç bir qəbir avadanlığı

aşkara çıxarılmamışdır. Göyüşov bildirir ki, S.Qazıyevin fikrincə bu cür dəfn adəti xristianlığa keçid.dövründə mövcud olmuşdur. Qeyd olunan qəbirlərdə skeletlər şərq-qərb istiqamətində dəfn olunmuşlar (2, s. 82).

Amaras çayının sağ sahilində skeletlər qərb-şərq istiqamətində dəfn edilmişlər. Qəbirlərin üzəri sal daşla örtülmüş, skeletlər isə sadə torpaq üzərində arxası üstə uzanmış vəziyyətdə aşkar edilmişdir. Bu qəbirlərdən də heç bir qəbir avadanlığı aşkar edilməmişdir. Skeletlərin bəzilərinin əlləri sinə nahiyyəsində çarpazlaşdırılmışdır. Nisbətən sonrakı dövrə aid olan qəbirlərdə qollar dirsəkdən nisbətən bükülmüş və çanağın ön hissəsində çarpazlaşdırılmışdır (2, s 82)

Govurqala ərazisində üzəri sal daşlarla örtülmüş 20-yə yaxın xristian qəbir abidəsi aşkar edilmişdir. Bu qəbirlərdə skeletlər zəif bükülmüş, əlləri üzünə doğru qaldırılmış vəziyyətdə dəfn edilmişdir. Belə daş qutu qəbir abidəsi Bərdə ərazisində də aşkara çıxarılmışdır. Bu qəbirdə isə skelet arxası üstə uzanmış, əlləri üzünə doğru qaldırılmış və başı qərb istiqamətində dəfn olunmuşdur (6, s. 109). Skeletin əlində üç iy başlığı aşkar edilmişdir. Çox güman ki, bu mərhumun sənəti ilə bağlıdır (6, s. 110).

Füzuli rayonunda aşkara çıxarılmış sərdabələrdə skeletlərin hamısı şimal divarından salınmış və başları qərbə doğru dəfn olunmuşlar. Tədqiq olunmuş sərdabələrdən biri istisna olmaqla, digərlərində skeletlərin sağ əlləri bədən boyu uzadılmış, sol əlləri isə üzlərinə doğru qaldırılmış vəziyyətdə olmuşdur. Burada aşkara çıxarılmış 3 nömrəli sərdabədə isə digərlərindən fərqli olaraq qoşa dəfn müşahidə olunur (6, s. 111). Bu sərdabədən başqa qoşa dəfn adətinə Ləkit-Kötüklü monastrı ətrafında aşkar edilmiş daş qutu qəbirdə (4, s. 16) və Govurqalada aşkara çıxarılmış 7 nömrəli daş sarkofaqda da rast gəlinir. Onu da qeyd etmək lazımdır ki, sarkofaq tipli qəbirlərin hazırlanması uzun müddət tələb etdiyindən bu tip qəbirlərə az rast gəlinir. Çox güman ki, sarkofaqlarda cəmiyyətin varlı təbəqələri dəfn edilirdi (6, s. 112). Xristian dövrünə aid kollektiv dəfn adəti müşahidə edilən digər abidə Şəmkir rayonu Çaparlı kəndi ərazisində yerləşən nekropolda aşkar edilmişdir. Üst hissədən xaç formasında olan qəbrin daxilində xaçın hər tərəfində 1 skelet olmaqla, ümumilikdə dörd skelet dəfn olunmuşdur. Skeletlərdən ikisi yaşlı insana, biri yeniyetməyə, digəri isə uşağa məxsusdur. Çaparlı nekropolunda aparılan qazıntılar zamanı müəyyən olunmuşdur ki, qəbirlər müxtəlif dərinliklərdə yerləşir. Beləki, yaşlı insanlara məxsus skeletlər daha dərindən, uşaq qəbirləri isə daha üzdən əldə edilmişdir. Güman ki, bu qəbirdə bir ailə dəfn olunmuşdur. Lakin qəbirin üst hissəsinin bir dəfə qazıldığının aydın müşahidə olunması dəfnin eyni zamanda aparıldığını sübut edir (1, s. 196-197).

İlk orta əsrlərdə xristianlıq dəfn adətlərini araşdırarkən belə nəticəyə gəlmək olar ki, bu dövrdə zəngin inventarla dəfn olunma itir, cəsədin istiqaməti dəyişir, qəbirlərin divarlarında və ya qəbirdən aşkar edilmiş avadanlıq üzərində xaç meydana gəlir (7, s. 19). Demək olar ki, xristian qəbir abidələrinin hamısında skeletlər bir qayda olaraq qərb-şərq istiqamətində dəfn olunmağa başlayır.

Dəfn adətlərinin öyrənilməsi qəbirlərin aid olduğu dövrdə mövcud sosial-ictimai şəraiti göz önündə canlandırmağa da imkan verir. Buna qəbir abidələrindən əldə edilmiş avadanlıqların sayı və keyfiyyəti müəyyən şərait yaradır. Lakin xristian qəbir abidələrində demək olar ki, avadanlığın olmaması bu məsələni aydınlaşdırmaqda müəyyən qədər çətinlik törətsə də, ilkin dövrlərə aid qəbirlərdə bunu müəyyən qədər izləmək mümkündür. Həmçinin bəzi qəbir abidələrində bütpərəstlik (qəbir avadanlığının olması, skeletin vəziyyəti) və zərdüştiliklə (kül təbəqəsinin və yanıq izlərinin aşkar edilməsi) bağlı dəfn ayinlərinin xristian adəti ilə çulğalaşmış şəkildə olması bəhs olunan dövrdə müxtəlif dinə mənsub insan qruplarının birgə yaşayışından xəbər verir.

## ƏDƏBİYYAT

1. Aşurov S.H. Çaparlı, son antik-ilk orta əsrlər abidəsi. Şəmkir arxeoloji irsi, tarixi və memarlığı birinci respublika elmi-praktik konfransının materialları, Şəmkir, 2007, 463 s.
2. Göyüşov R.B. Amaras Ağoğlan, Bakı, Elm, 1975, 100 s
3. Xəlilov M.C. Albaniyanın qəbir abidələri (IV – X əsrlər), Bakı, Nafta-Press, 2009, 179 s
4. Карахмедова А.А. Христианские памятники Кавказской Албании (Алазанская долина), Баку, Элм, 1986, 20 с.
5. Qazıyev S.M. Qəbələ ərazisinin qədim dəfn mərasimləri haqqında, Bakı, Azərbaycan maddi mədəniyyəti, VI cild, 1965
6. Геюшев Р.Б. Христианство в Кавказской Албании, Баку, Элм, 1984, 191 с.
7. Геюшев Р.Б. О типологии и закономерностях развития погребальних обрядов Кавказской Албании, Итоги полевых археологических и этнографических исследований за 1972 год в Азербайджанской ССР. Тезисы. Баку, Элм, 1973
8. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə (arxeoloji qazıntı materialları əsasında), Bakı, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1961, 160 s.

***Илаха Адил кызы Нахметова***

### О ПОГРЕБАЛЬНЫХ ОБРЯДАХ В АЗЕРБАЙДЖАНЕ В РАННЕЕ СРЕДНЕВЕКОВЬЕ

### *РЕЗЮМЕ*

Поскольку погребальные традиции являются отражением идеологии общества, религиозного мировоззрения, строение погребений, положение погребенных скелетов и захоронение различного оборудования позволяют делать предположения о религии населения, социальном, экономическом и культурном уровне того или иного общества. В этом отношении исследование христианских погребений в Кавказской Албании имеют большое значение для выявления погребальных традиций в раннее средневековье. Так, исследование погребальных традиций позволяет выявить социальную стратификацию общества.

***Ilaha Adil gizi Nahmatova***

### ON BURIAL TRADITIONS IN AZERBAIJAN IN EARLY MEDIEVAL

### *SUMMARY*

As the funeral traditions reflect the ideology of society, religious outlook the structure of the graves, the position of the buried skeletons and burial equipment make clear individual’s belief and social, economic and cultural level of society respectively. In that respect research of Caucasian Albanian Christian graves are crucial. Generally, Christian graves are divided into several groups due to structure and the position of the buried skeletons.

Meanwhile, investigation of the funeral traditions allows revealing the social situation of that period of the history. Quality and quantity of burial equipment make clear it.